**UOT 72.01**
https://doi.org/10.59849/2218-4783.2026.2.233

# ƏCƏMİ NAXÇIVANİ MEMARLIĞINDA ZAMAN ANLAYIŞI

# THE CONCEPT OF TIME IN THE AJAMI NAKHCHIVANI`S ARCHITECTURE

**Brilyant CƏFƏRLİ***

**XÜLASƏ**

Əcəmi Naxçıvani yaradıcılığı orta əsr Azərbaycan memarlığında zaman anlayışının özünəməxsus və çoxşaxəli ifadəsi ilə seçilir. Məqalədə memarın əsərlərində zamanın yalnız xronoloji çərçivədə deyil, həm də fəlsəfi və simvolik aspektdə təzahür etdiyi göstərilir. Araşdırma nəticəsində müəyyən olunmuşdur ki, Əcəmi memarlığında zaman anlayışı memarlıq formaları, həndəsi ornamentlər, işıq-kölgə dinamikası, material seçimi və kitabələr vasitəsilə kompleks şəkildə ifadə olunmuşdur. Təhlillər göstərir ki, Möminə xatun və Yusif Küseyir oğlu türbələri kimi abidələrdə zamanın axıcılığı ilə əbədiyyət ideyası arasında harmonik əlaqə yaradılmışdır. Ornamentlərin ritmik təkrarı sonsuzluq təsəvvürünü formalaşdırır, işıq və kölgə dəyişkənliyi zamanın keçidini vizual şəkildə nümayiş etdirir, davamlı materiallar isə zamanın dağıdıcı təsirinə qarşı müqavimət ideyasını əks etdirir. Nəticə etibarilə, Əcəmi Naxçıvani memarlığında zaman anlayışı yalnız nəzəri kateqoriya deyil, həm də memarlıq vasitəsilə hiss olunan və qavranılan bir fenomen kimi çıxış edir. Bu yanaşma memarlığın yalnız funksional və estetik deyil, həm də dərin məzmun daşıyan bir sənət növü olduğunu bir daha təsdiq edir.

**Açar sözlər:** *Əcəmi, memarlıq, abidə, türbə, zaman.*

**ABSTRACT**

The Ajami Nakhchivani`s work stands out in medieval Azerbaijani architecture for its distinctive and multifaceted expression of the concept of time. The article demonstrates that in the architect's works, time is manifested not only within a chronological framework but also in philosophical and symbolic aspects. The research reveals that in Ajami's architecture, the concept of time is expressed in a complex manner through architectural forms, geometric ornaments, the dynamics of light-shadow, material selection, and inscriptions. The analysis shows that in monuments such as the Momine Khatun Tomb and the Yusuf Kuseyir oglu Tomb, a harmonious relationship has been established between the flow of time and the idea of eternity. The rhythmic repetition of ornaments creates a perception of infinity, the variability of light and shadow visually demonstrates the passage of time, and durable materials reflect the idea of resistance to the destructive effects of time. As a result, in the architecture of Ajami Nakhchivani, the concept of time is not only a theoretical category but also a phenomenon that is felt and perceived through architecture. This approach once again confirms that architecture is not only a functional and aesthetic field, but also an art form that carries profound meaning.

**Keywords:** *Ajami, architecture, monument, tomb, time.*

## GİRİŞ

Əcəmi Naxçıvani yaradıcılığı orta əsr Azərbaycan memarlığının ən yüksək inkişaf mərhələsini təmsil edir. Dahi memarın sənətkarlıq irsi yalnız estetik və konstruktiv xüsusiyyətləri ilə deyil, həm də dərin fəlsəfi məzmunu ilə seçilir. Əcəmi Naxçıvaninin yaratdığı memarlıq nümunələri, xüsusilə zəmanəmizəcən gəlib çatmış Yusif Küseyir oğlu və Möminə xatun türbələri yalnız tarixi abidə kimi deyil, eyni zamanda insanın varlıq, zaman və əbədiyyət haqqında düşüncələrinin maddiləşmiş forması kimi çıxış edir. Bu baxımdan, Əcəmi memarlığına yalnız texniki və ya bədii yanaşma kifayət etmir. Onun əsərlərinin mahiyyətini anlamaq üçün onları fəlsəfi və semantik kontekstdə təhlil etmək zəruridir.

*AMEA Naxçıvan Bölməsi, e-mail: brilliant1cefer@yahoo.com
ORCID: 0009-0008-4149-4293

Memarlıqda zaman anlayışı ən mürəkkəb və çoxqatlı kateqoriyalardan biridir. Memarlıq bir tərəfdən konkret tarixi dövrün məhsulu kimi zamanın içində yaranır, digər tərəfdən isə öz mövcudluğu ilə bu zaman çərçivəsini aşaraq gələcək nəsillərə ünvanlanır. Bu mənada memarlıq həm keçmişin yaddaşı, həm bu günün ifadəsi, həm də gələcəyin potensial mirasıdır [LaTour, 2011, p. 5]. Əcəmi Naxçıvani yaradıcılığında bu xüsusiyyət bariz şəkildə müşahidə olunur. Onun inşa etdiyi abidələr zamanın axıcılığına qarşı qoyulan bir "dayanıqlılıq manifesti" kimi çıxış edir.

Orta əsr Şərq düşüncəsində zaman yalnız xətti şəkildə irəliləyən proses kimi deyil, həm də dövri və nisbi anlayış kimi dərk olunmuşdur. Bu baxışa görə, maddi dünya keçici, ilahi həqiqət isə əbədi hesab olunurdu [Şulul, 2002, s. 85, 87]. Əcəmi memarlığında bu fəlsəfi yanaşmanın izləri aydın şəkildə hiss olunur. Türbə tipli tikililər yalnız dəfn məkanı deyil, eyni zamanda fanidən əbədiyyətə keçidin simvolik məkanlarıdır. Bu tikililərdə istifadə olunan kompozisiya, həndəsi quruluş və ornament sistemi zamanın keçiciliyi ilə əbədiyyət ideyası arasında harmonik əlaqə yaradır.

Əcəmi yaradıcılığında zaman anlayışı yalnız ideya səviyyəsində deyil, həm də vizual və konstruktiv elementlər vasitəsilə ifadə olunur. Gün ərzində dəyişən işıq və kölgə effektləri, həndəsi ornamentlərin sonsuzluq təəssüratı yaradan ritmik təkrarı, eləcə də tikililərin şaquli istiqamətdə yüksələn kompozisiyası zamanın həm axıcılığını, həm də onun aşılması ideyasını formalaşdırır. Bu baxımdan, Əcəmi memarlığı "donmuş zaman" anlayışını özündə ehtiva edir. Burada zaman həm mövcuddur, həm də aşılır. Bütün bunları nəzərə alaraq, Əcəmi Naxçıvani yaradıcılığında zaman anlayışının araşdırılması yalnız memarlıq tarixinin deyil, eyni zamanda fəlsəfə, estetika və mədəniyyətşünaslıq sahələrinin kəsişməsində duran mühüm elmi problemdir.

**ƏCƏMİ NAXÇIVANİNİN MEMARLIQ FORMALARINDA ZAMANIN İFADƏSİ**

Monumental memarlıqda kompozisiya vəhdəti qanunu memarlıq kompozisiyasını təşkil edən funksional-konstruktiv və bədii-məzmun elementlərinin üzvi şəkildə birləşərək ayrılmaz dialektik bütövlük yaratmasını ifadə edir. Struktur bütövlüyü isə müxtəlif prinsip və kateqoriyaların onların qarşılıqlı nisbətlərində müəyyən olunan iyerarxiya çərçivəsində vahid sistem kimi birləşməsini nəzərdə tutur. Bu sistem daxilində əsas rol konkret zaman və məkan üçün səciyyəvi olan funksiyaları əks etdirən və cəmiyyətin formalaşmış tipoloji xüsusiyyətlərinə söykənən həcm-fəza strukturuna məxsusdur [Əliyev və Əliyev, 2025, s. 122].

Əcəmi Naxçıvani yaradıcılığında zaman anlayışı ilk növbədə memarlıq formalarının quruluşunda özünü göstərir. Onun inşa etdiyi tikililərdə forma yalnız estetik məqsəd daşımır, həm də müəyyən ideyanın daşıyıcısı kimi çıxış edir. Şaquli istiqamətdə yüksələn həcmlər, çoxbucaqlı plan quruluşları və kompozisiyanın mərkəzə doğru yönəlməsi zamanın axıcılığı ilə onun aşılması arasında əlaqə yaradır. Bu xüsusiyyətlər səkkizbucaqlı plan quruluşuna malik olan Yusif Küseyir oğlu türbəsində və onbucaqlı plan quruluşuna malik olan Möminə xatun türbəsində aydın müşahidə olunur. Burada çoxbucaqlı memarlıq formaları sanki statik deyil, daxili dinamizmə malikdir və bu dinamizm zamanın davamlı hərəkətini simvolizə edir.

İstənilən tarixi mərhələnin incəsənətində üslub bədii ifadə vasitələri və üsullarının zamanla formalaşmış vahid obrazlı sistemini təşkil etmişdir. Yeni bir üslub meydana gəldikdə ilk növbədə əsərin forması, konstruktiv quruluşu, silueti, rəng həlli və ritmik quruluşu dəyişmiş, bunun ardınca isə dekorativ elementlər, yəni ornamentlər də yenilənmişdir. Bu səbəbdən ornamentlər haqlı olaraq "dövrün əl yazısı" kimi qiymətləndirilir [Cavadzadə, 2024, s. 209-210].



**Şəkil 1.** Yusif Küseyir oğlu türbəsinin fasadı və planı



**Şəkil 2.** Möminə xatun türbəsinin fasadı və planı

**ƏCƏMİ MEMARLIĞINDA ORNAMENT VƏ RİTM: ZAMANIN VİZUAL DİLİ**

Əcəmi memarlığında ornamentlər yalnız dekorativ element kimi deyil, həm də zamanın (dövrün) vizual ifadə vasitəsi kimi çıxış edir. Həndəsi naxışların ritmik və fasiləsiz təkrarı sonsuzluq təsiri yaradır və zamanın davamlılığını simvolizə edir [Cəfərli, 2026, s. 212]. Bu təkrarlar müəyyən ritm yaradır ki, həmin ritm də zamanla sıx bağlıdır. Ornamentlərin quruluşunda müşahidə olunan simmetriya və harmoniya zamanın nizamlı və ölçülə bilən xarakterini əks etdirir. Beləliklə, ornament sistemi vasitəsilə zaman həm hiss olunur, həm də "oxunur".



**Şəkil 3.** Yusif Küseyir oğlu türbəsi üzərindəki həndəsi ornamentlər



**Şəkil 4.** Möminə xatun türbəsi üzərindəki həndəsi ornamentlər

**ƏCƏMİ YARADICILIĞINDA İŞIQ-KÖLGƏ DİNAMİKASI**

Memarlıq obyektlərinin interyerlərinin və eksteryerlərinin gün ərzində dəyişən vizual görünüşü zamanın ən aydın ifadələrindən biridir. Gün işığı memarlıqda həmişə mühüm yer tutmuşdur. Psixoloji və fizioloji təsirləri olan təbii işığın istifadəsi qədim dövrlərdən bəri xüsusilə ibadət yerlərində və dini memarlıqda davamlı şəkildə tətbiq olunmuşdur. Gün işığından dizayn elementi kimi istifadə edən

memarlar məkanın material seçimi və səthlərin işıqla qarşılıqlı təsirini də nəzərə almışlar [Cengiz, 2022, s. 196, 197]. İnteryerə pəncərə formalarından daxil olan gün işığı zamanın axışında insanın özünü mənəvi cəhətdən dərk etməsini təmin etmişdir. İnsan bu mistik məkanlarda özünü dərk etdikcə mənəvi cəhətdən yüksəlmişdir. Fasadlarda yaranan işıq-kölgə dinamizmi isə məkanları sakral və “canlı” qavranılan bədii mühitə çevirmişdir.

Əcəmi Naxçıvani abidələrinin eksteryerlərində işıq və kölgənin qarşılıqlı təsiri xüsusi əhəmiyyət kəsb edir. Günəş şüalarının müxtəlif bucaqlardan düşməsi nəticəsində tikilinin səthində yaranan kölgə oyunları abidənin görünüşünü daim dəyişir. Bu dəyişkənlik zamanın keçidini vizual şəkildə nümayiş etdirir. Beləliklə, memarlıq yalnız statik obyekt deyil, “zamanla birlikdə yaşayan” bir sistem kimi çıxış edir. Əcəmi abidələrinin interyerlərində isə işıq-kölgə oyunu dəliklər və nəfəsliklər vasitəsilə məkana daxil olan təbii işığın təsiri ilə formalaşır.



**Şəkil 5.** Yusif Küseyir oğlu türbəsi üzərindəki dəliklər



**Şəkil 6.** Möminə xatun türbəsi üzərindəki nəfəsliklərdən biri

**ƏCƏMİ MEMARLIĞINDA MATERİAL VƏ DAVAMLILIQ ANLAYIŞI**

Memarlıqda tikinti materiallarının davamlılığı ən vacib amillərdən biridir. Çünki material nə qədər uzunömürlü olarsa, onun dəyişdirilməsinə ehtiyac azalır. Bu isə abidələrin minilliklər boyu salamat qalmasını və çox nadir hallarda bərpa-restavrasiya olunmasını təmin edir. Bu kontekstdə davamlılıq anlayışı birbaşa zaman anlayışı ilə sıx əlaqəlidir. Çünki memarlıq abidələri yalnız məkan daxilində deyil, eyni zamanda zaman axını içərisində mövcud olur və dəyərləndirilir [Nasiri, 2022, p. 42]. Materialın həyat dövrü, yəni onun yaranmasından istifadə və sonrakı mərhələlərinə qədər olan müddət, zamanla ölçülən bir prosesdir. Davamlı materiallar bu zaman kəsiyində daha az müdaxilə tələb edərək həm resurslara qənaət edir, həm də tikilinin bütövlüyünü qoruyur. Nəticə etibarilə, memarlıqda material və davamlılıq anlayışları zaman faktorunun ayrılmaz tərkib hissəsinə çevrilir. Çünki hər bir memarlıq nümunəsi öz dəyərini məhz zaman içində formalaşdırır və qoruyur.

Davamlı materialların istifadəsi tikilinin zamanla sınaqdan çıxmasına və müxtəlif dövrlərin təsirlərinə tab gətirməsinə imkan yaradır. Beləliklə, materialın möhkəmliyi və keyfiyyəti memarlıq nümunəsinin “zaman qarşısında davamlılığı”nı müəyyən edir. Zaman keçdikcə bir çox tikililər ya məhv olur, ya da ciddi dəyişikliklərə məruz qalır. Lakin davamlı materiallardan inşa edilən abidələr ilkin forma və məzmununu daha uzun müddət qoruyaraq keçmişlə bu gün arasında canlı əlaqə yaradır. Bu baxımdan, material seçimi memarın zamanla dialoqa girmə vasitəsi kimi çıxış edir.

Zaman anlayışı həm də materialın estetik transformasiyasında da özünü göstərir. Bəzi materiallar zaman keçdikcə köhnəlmək əvəzinə daha dəyərli vizual keyfiyyətlər qazanır, patina (materiallar

üzərində əmələ gələn müxtəlif rəngli təbəqə) və təbii aşınma vasitəsilə abidəyə tarixilik və autentiklik (gerçəklik) hissi bəxş edir. Bu isə memarlıq əsərlərinin yalnız fiziki deyil, həm də semantik davamlılığını təmin edir.

Əcəmi yaradıcılığında istifadə olunan tikinti materialları da zaman anlayışı ilə birbaşa bağlıdır. Kərpic materialının seçilməsi və onun xüsusi texnologiya ilə hazırlanması, palçığın içinə yumurta ağının qatılması tikililərin uzunömürlülüyünü təmin etmişdir. Bu isə memarlıq vasitəsilə zamanın dağıdıcı təsirinə qarşı müqavimət ideyasını ifadə edir. Əcəmi abidələrinin əsrlər boyu qorunub saxlanması onların yalnız fiziki mövcudluğunu deyil, həm də zaman üzərində qazanılmış simvolik "qələbəni" nümayiş etdirir.

Bununla yanaşı, Əcəminin material seçimi təkcə texniki deyil, həm də dərin düşünülmüş konseptual yanaşmanın nəticəsidir. Kərpic materialının modul quruluşu və ritmik düzülüşü memarlıqda müəyyən zaman ardıcıllığını, təkrarlanma və sonsuzluq ideyasını vizual şəkildə ifadə edir. Bu ritm sanki zamanın fasiləsiz axınını simvollaşdırır və tikililərin statik formaları daxilində dinamik məna yaradır. Beləliklə, material yalnız konstruktiv element kimi deyil, həm də zamanın fəlsəfi ifadə vasitəsinə çevrilir.

Bu materialların zaman keçdikcə öz keyfiyyətlərini qoruması və hətta bəzi hallarda daha da estetik dəyər qazanması həm də Əcəmi memarlığında "zamanla kamilləşmə" ideyasını ortaya qoyur. Günəş şüaları, külək və iqlim təsirləri altında kərpic səthində yaranan təbii dəyişikliklər abidələrə əlavə tarixi qat və dərinlik verir. Bu isə tikililəri yalnız müəyyən bir dövrün məhsulu kimi deyil, zamanın müxtəlif mərhələlərini özündə birləşdirən canlı bir varlıq kimi təqdim edir.

Digər tərəfdən, Əcəmi yaradıcılığında materialların davamlılığı ilə bədii tərtibat arasında sıx əlaqə mövcuddur. Ornamentlərin və yazıların birbaşa kərpic materialı üzərində yenə həmin tikinti material ilə işlənməsi onların zamanla birlikdə yaşamasını təmin edir. Bu yanaşma dekorativ elementləri müvəqqəti deyil, memarlıq strukturunun ayrılmaz hissəsinə çevirir. Nəticə etibarilə, Əcəmi Naxçıvani yaradıcılığında tikinti materialları yalnız fiziki dayanıqlıq vasitəsi deyil, həm də zamanın keçiciliyinə qarşı yaradılmış estetik və mənəvi davamlılıq modelidir.

**ƏCƏMİ YARADICILIĞINDA YAZI VƏ YADDAŞ FUNKSİYASI**

Memarlıq abidələri üzərində istifadə edilən epiqrafik yazılar böyük əhəmiyyət kəsb edərək, tikililərin inşa tarixini qeyd edir, bu əsərləri tarixi sənədə çevirir, zamanın keçməsinə baxmayaraq məlumatları qoruyur, abidələri "dondurulmuş zaman izi" kimi göstərir. Beləliklə inşa olunan memarlıq abidələri tarixi yaddaş daşıyıcısına çevrilir [Rəsulova, 2018, s. 36].

Əcəmi memarlığında kitabələr xüsusi yer tutur. Bu kufi xətli epiqrafik yazılardan ibarət kitabələr yalnız informativ xarakter daşımır, həm də zamanın yaddaşını qoruyan vasitə kimi çıxış edir. Əcəmi Naxçıvaninin inşa etdiyi abidələrdən Yusif Kuseyir oğlu və Möminə xatun türbələrinin, Qoşa minarəli baştağın kitabələri XIX yüzilliyin ortalarından etibarən tədqiq edilmişdir. Bu tədqiqatların nəticəsi olaraq həmin abidələrin təyinatı, sifarişçisi, inşa tarixi və memarı haqqında məlumatlar elmi dövriyyəyə daxil edilmişdir. Beləliklə, bu kitabələrin təqdim etdiyi məlumatlar əsasında görkəmli Azərbaycan memarı Əcəmi Əbubəkr oğlu Naxçıvaninin adı elmi ictimaiyyətə məlum olmuşdur [Səfərli, 2025, s. 6]. Abidələr üzərində həkk olunmuş həmin mətnlər müəyyən tarixi anları sabitləşdirir və onları gələcək nəsillərə ötürür. Beləliklə, memarlıq obyektləri həm də zamanın "daşa həkk olunmuş xatirəsi" rolunu oynayır.



**Şəkil 7.** Yusif Küseyir oğlu türbəsi üzərindəki epiqrafik kitabələr



**Şəkil 8.** Möminə xatun türbəsi üzərindəki epiqrafik kitabələr

**ƏCƏMİ MEMARLIĞINDA MƏKAN VƏ ZAMANIN VƏHDƏTİ**

Ənənəvi Şərq-İslam fəlsəfəsində insanın "mən" anlayışı yalnız bədənlə əlaqələndirilmir. Burada əsas mahiyyət ruh və daxili aləm ilə bağlıdır. Maddi dünya zahiri məkan gerçəkliyi kimi qəbul edilsə də, insanın daxilinə yönələn düşüncə fərqli bir məkan anlayışı yaradır. Bu daxili məkan fiziki sərhədlərlə ölçülmür, zamanla birlikdə insanın mənəvi təcrübəsini formalaşdırır. Beləliklə, məkan yalnız xarici mühit deyil, insanın ruhən yaşadığı və zaman daxilində dərk etdiyi bir varlıq sahəsinə çevrilir [Xəlilov, 2017, s. 124, 125].

Əcəmi memarlığında məkan və zaman bir-birindən ayrılmaz anlayışlar kimi çıxış etmişdir. Tikililərin daxili və xarici məkanları arasında qurulan əlaqə insanın hərəkət trayektoriyasını müəyyən edir və bu hərəkət zamanı hiss etməyə imkan yaradır. Girişdən mərkəzə doğru yönələn plan quruluşu insanı tədricən yeni məkan qatlarına aparır. Bu keçid yalnız fiziki deyil, həm də zamanın mərhələli şəkildə qavranılması ilə müşayiət olunur. Şərq düşüncəsində "daxilə səyahət" anlayışı necə mənəvi dərinliyə yönəlirsə, Əcəmi memarlığında da məkan daxilində irəliləmə zamansal təcrübə yaradır. İnsan tikililərin hər bir hissəsinə daxil olduqca bu məkanların müxtəlif hissələrini ardıcıl şəkildə yaşayır. Bu ardıcıllıq zaman hissini formalaşdırır. Beləliklə, məkan statik bir quruluş deyil, hərəkət və qavrayış vasitəsilə zamanın hiss edildiyi dinamik sistemə çevrilir. Bu baxımdan, Əcəmi memarlığında məkan və zamanın vəhdəti memarlıq kompozisiyasının əsas xüsusiyyətlərindən biridir. Məkan insanın fiziki mövcudluğunu istiqamətləndirərkən, zaman həmin məkanın mərhələli şəkildə dərk olunmasına xidmət edir. Nəticədə, memarlıq yalnız quruluş forması deyil, insanın həm məkan, həm də zaman daxilində yaşadığı bütöv təcrübənin ifadəsinə çevrilir.

**NƏTİCƏ**

Araşdırmalarımızdan məlum olur ki, Əcəmi Naxçıvani memarlığında zaman anlayışı çoxşaxəli və kompleks şəkildə təzahür etmişdir. Bu anlayış həm memarlıq formalarında, həm ornament sistemində, həm də işıq, material və məkan münasibətlərində öz əksini tapmışdır. Əcəmi yaradıcılığı göstərir ki, memarlıq yalnız maddi mühit yaratmaq vasitəsi deyil, həm də zamanın dərk və ifadə olunmasının mühüm formasıdır. Dahi sənətkarın inşa etdiyi abidələr zamanın axıcılığı ilə əbədiyyət ideyasını birləşdirərək memarlıq tarixində özünəməxsus və dərin məna kəsb edən bir mərhələ təşkil etmişdir.

**ƏDƏBİYYAT**

Cavadzadə, G. (2024). İnnovativ texnologiyalar əsasında müasir parça dizaynında ornamentlərin tətbiqi. *Elmi xəbərlər (İctimai və Texniki elmlər seriyası),* 1, 208-212.

Cəfərli, B. (2026, Fevral 28). *Naxçıvan memarlıq məktəbi və türkologiya: Əcəmi fenomeninin elmi təhlili.* İnternational Scientific Symposium “In the Light of a Century: The Turkological Mission from Past to Future”, dedicated to the 100th Anniversary of the First Turkology Congress, Astana.

Əliyev, T. & Əliyev, C. (2025). Tikilinin layihədə və naturada həcm-fəza kompozisiyasının formalaşması. *ŞÖBMA Memarlıq, şəhərsalma tarixi və bərpası,* 25 (2), 121-126.

Xəlilov, S. (2017). Esselər, maksimalar və qeydlər. *Fəlsəfə və sosial-siyasi elmlər,* 2 (41), 118-129.

Rəsulova, Z.M. (2018). Orta əsr Azərbaycan memarlıq abidələrində kitabələrin bədii tərtibat xüsusiyyətləri. *Elmi əsərlər,* 2, 36-40.

Səfərli, H. (2025). Görkəmli Azərbaycan memarı Əcəmi Əbubəkr oğlu Naxçıvaninin həyatı və yaradıcılığı haqqında. *Naxçıvan Dövlət Universitetinin Elmi əsərləri,* 7 (2), 5-10.

Cengiz, M.S. (2022). The Interaction of Daylight With Design and Place In Religious Buildings According To Modern Architecture. *Avrupa Bilim ve Teknoloji Dergisi*, 35, 195-202. https://doi.org/10.31590/ejosat.1071317

Şulul, C. (2002). İslam düşüncesinde zaman tasavvuru. *Harran Üniversitesi İlahiyat Fakültesi dergisi,* 3, 73-88.

LaTour, A. (2011). *The architecture of time.* The University of Detroit Mercy: School of Architecture.

Nasiri, A.G. (2022). Economic benefits of sustainable park: a solution to improve the city’s environment. *Elmi əsərlər,* 2, 34-46.

*(AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə tərəfindən təqdim edilmişdir)*

**Daxilolma tarixi: İlkin variant 15.05.2026**
**Son variant 03.06.2026**